**Kitabxanaçıların peşə ustalığı üzrə**
**"İlin kitabxanaçısı – 2013" respublika müsabiqəsi haqqında**

**Ə S A S N A M Ə**

1. MÜSABİQƏNİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

1.1. Müsabiqənin əsas məqsəd və vəzifələri aşağıdakılardır:
1.1.1. İctimai şüurda kitabxanaların mədəniyyət və təhsil sisteminin ayrılmaz tərkib hissəsi olması haqqında təsəvvür formalaşdırılması;
1.1.2. Kitabxana işçilərinin öz imkanlarını reallaşdırması, onların yaradıcılıq potensialının üzə çıxarılması üçün şərait yaradılması;
1.1.3. Kitabxana işçilərinin peşə ünsiyyəti diapazonunun genişləndirilməsi.
1.2. Müsabiqə:
1.2.1. Kitabxanaçı peşəsinin nüfuzunun artmasına;
1.2.2. İstedadlı kitabxana işçilərinin aşkar edilməsinə;
1.2.3. Kitabxanaçının yaradıcı təşəbbüsünün stimullaşdırılmasına, peşə ustalığının nəzəri və praktiki səviyyəsinin artırılmasına;
1.2.4. Kitabxanaçıların qabaqcıl iş təcrübəsinin, o cümlədən yeni informasiya texnologiyalarından istifadə edilməsinə kömək etməlidir.

2. MÜSABİQƏNİN İŞTİRAKÇILARI

Müsabiqədə idarə mənsubiyyətindən və mülkiyyət formalarından asılı olmayaraq bütün kitabxanaların işçiləri iştirak edə bilər.

3. NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLMƏSİ QAYDASI

3.1. Müsabiqədə iştirak etmək üçün namizədlərin irəli sürülməsi onların öz təşəbbüsü ilə və ya kitabxana kollektivinin təşəbbüsü ilə həyata keçirilə bilər.
3.2. Müsabiqədə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etmək zəruridir:
3.2.1. Şəxsi ərizə;
3.2.2. Namizədin fəaliyyəti haqqında kitabxana müdiriyyətindən təqdimat;
3.2.3. İştirakçının anketi;
3.2.4. Fotoşəkil.

4. MÜSABİQƏYƏ RƏHBƏRLİK

4.1. Müsabiqənin təşkil edilməsi, keçirilməsi və ona yekun vurulması üçün Münsiflər Heyəti yaradılır. Münsiflər Heyətinin tərkibinə peşəkar kitabxana işçiləri, kitabxana işi sahəsində metodistlər, mütəxəssislər, dövlət təşkilatlarının və ictimai təşkilatların nümayəndələri daxil ola bilər.
4.2. Münsiflər Heyətinin funksiyaları:

4.2.1. Müsabiqənin keçirilməsi şərtlərini və müddətlərini müəyyən edir;

4.2.2. Müsabiqənin qiymətləndirmə meyarlarının işlənib hazırlanması üçün mütəxəssislər cəlb edir.

4.2.3. Müsabiqəyə yekun vurur və müsabiqənin qalibini müəyyən edir.

4.2.4. Müsabiqə materialları AZLIBNET Mərkəzinin saytında (http://www.azlibnet.az) yerləşdirilir.

5. MÜSABİQƏ TAPŞIRIQLARININ KEÇİRİLMƏSİ PROSEDURU, TAPŞIRIQLARIN MƏZMUNU VƏ QİYMƏTLƏNDİRMƏ MEYARLARI

Müsabiqə 3 turdan ibarətdir:

**5.1. *Birinci tur.***
**Özünü təqdimetmə**

Özünü təqdimetmə müsabiqə iştirakçısının öz kitabxanasında ekskursiya şəklində keçirilir. Ekskursiya zamanı müsabiqə iştirakçısı informasiya məkanının təşkil edilməsi sistemini təqdim edir. Ekskursiyanın keçirilməsinə ən çoxu 20 dəqiqə vaxt ayrılır.

**Qiymətləndirmə meyarları** (maksimal qiymət 40 bal):

- Müsabiqə iştirakçısının peşəkar və ümumi intellektual səviyyəsi (nitq mədəniyyəti, peşə terminologiyasını bilməsi və s.);
- Kitabxananın xüsusiyyətləri (kitabxana otaqlarının sayı və ölçüləri, istifadəçilər kontingenti və onların maraqları, kitabxananın vəzifələri) nəzərə alınmaqla və metodik tələblərə uyğun olaraq fondların təşkil edilməsi və onların məzmununun açıqlanması sistemi (fondların yerləşməsi, oxuculara xidmət zonalarının təşkili və s.);
- Kitabxananın informasiya resurslarının əyani təbliğatının təşkil edilməsi;
- Kitabxananın informasiya məkanı sistemində innovasiyalı informasiya texnologiyalarından istifadə edilməsi;
- Estetik tərtibat səviyyəsi;
- Ekskursiyanın keçirilməsinin məntiqiliyi;
- Reqlamentə riayət edilməsi.

**5.2. *İkinci tur***

“2011-2012-ci illərin yubilyar yazıçıları” mövzusunda öz kitabxanası bazasında **açıq kitabxana tədbirinin keçirilməsi və təhlil edilməsi**. Turun keçirilmə müddəti: 2013-cü il sentyabr ayının 24-dən 26-dək (ayrıca qrafik üzrə). Tədbirin ssenarisi 2013-cü il sentyabr ayının 12-dək Münsiflər Heyətinə – Nazirliyin Nəşriyyat, reklamın təşkili və informasiya şöbəsinin Kitabxana sektoruna təqdim edilir.

**Qiymətləndirmə meyarları** – (maksimal qiymət 50 bal):

- Kütləvi tədbirlərin bir forması kimi, kitabxana tədbirlərinə təqdim edilən tələblərə riayət edilməsi;
- Tədbirin hazırlanması və keçirilməsi zamanı istifadəçilərin yaş

xüsusiyyətlərinin nəzərə alınması;
- Tədbirin gedişində əyani vəsaitlərdən istifadə edilməsi;
- İstifadəçilərlə ünsiyyət mədəniyyəti;

**5.3.** ***Üçüncü tur***

Kitabxananın informasiya məkanının təşkil edilməsi üzrə fəaliyyət barədə **yaradıcılıq hesabatının təqdim edilməsi.**

**Yaradıcılıq hesabatının tərtib edilməsinə və məzmununa dair tələblər.**

1. Yaradıcılıq hesabatı fayllardan ibarət qovluq şəklində təqdim edilir.

2. **Titul vərəqində** işin adı ("Kitabxananın informasiya məkanının təşkili"), yaradıcı hesabatın hansı müsabiqə çərçivəsində təqdim edilməsi (Kitabxanaçıların peşə ustalığı üzrə "İlin kitabxanaçısı – 2013" Respublika müsabiqəsi), kitabxananın tam adı, kitabxana direktorunun soyadı, adı, atasının adı göstərilməlidir.

3. Yaradıcılıq hesabatının məzmunu kitabxana haqqında, eləcə də kitabxananın informasiya məkanının təşkilinə dair fəaliyyətinin növləri haqqında ən mühüm məlumatları əks etdirməlidir:

- Kitabxana fondu haqqında məlumat: əsas fondun və tədris, sorğu və metodik ədəbiyyat fondunun həcmi; son iki ildə ədəbiyyatın dövriyyə dinamikası;
- Kitablarla təmin olunma dərəcəsi;
- Fondda elektron daşıyıcılarda (kompakt disklər və s.) olan sənədlər;
- Kitabxananın fəaliyyətində informasiya və media texnologiyalarının tətbiqini və onlardan istifadə olunmasını təmin edən maddi-texniki bazanın vəziyyəti: İnternet, kompyuterlər, kitabxananın istifadə etdiyi skanerlər və digər texnika;
- Kitabxananın informasiya məkanının təşkili üzrə iş təcrübəsinin təsviri:

1. Kitabxananın qarşısında duran məsələlərin həlli üçün informasiya məkanının savadlı təşkilinin əhəmiyyəti.
2. Metodik tələblərə uyğun olaraq və təhsil müəssisəsinin xüsusiyyətləri (kitabxana otaqlarının sayı və ölçüləri, istifadəçilərin kontingenti və onların maraqları, kitabxananın vəzifələri) nəzərə alınmaqla fondların təşkil edilməsi və onların məzmununun açıqlanması sistemi (fondların yerləşməsi, oxuculara xidmət zonalarının təşkili və s.);
3. Kitabxananın informasiya resurslarının əyani təbliğatının təşkil edilməsi;
4. Kitabxanalara təqdim edilən sanitar-texniki normalara riayət edilməsi
5. Estetik tərtibat səviyyəsi;
6. Kitabxananın informasiya məkanı sistemində innovasiyalı informasiya texnologiyalarından istifadə edilməsi.

Təsvir yuxarıda sadalanan mövqelərin əks etdirilməsi nəzərə alınmaqla sərbəst formada tərtib edilir.

Yaradıcı hesabata kitabxananın müsabiqə mövzusu üzrə işini əks etdirən xüsusi metodik işləmələr, əyani (foto, təqdimatlar) və video materiallar daxil edilə bilər.

Hesabatın həcmi A4 formatlı kağızda 1,5 intervalla 14 ölçülü şriftlə yazılmış 10-15 səhifədən çox olmamalıdır.

6. MÜSABİQƏYƏ YEKUN VURULMASI

6.1. Müsabiqənin qalibi üç turun hər birində çıxışların nəticələrinin qiymətləndirilməsi yolu ilə Münsiflər Heyətinin iclaslarının protokollarında müvafiq qaydada müəyyən edilir.

6.2. "İlin kitabxanaçısı - 2013" qalibləri diplom və pul mükafatı ilə, habelə beynəlxalq kitabxana konfranslarında iştirak etməklə təltif olunurlar:

- şəhər (rayon) Mərkəzi kitabxana əməkdaşlarına – 1000 manat (2 nəfər);
- uşaq şöbələrinin əməkdaşları – 500 manat (3 nəfər);
- qəsəbə, kənd kitabxana filiallarının əməkdaşları – 300 manat (5 nəfər);
- "Krım - 2013" Beynəlxalq kitabxana konfransında iştirak – 5 nəfər;
- LİBKOM Beynəlxalq kitabxana konfransında iştirak – 3 nəfər.

**Müsabiqə materialının təqdim ediləcəyi yer:**

Az 1000, Bakı şəhəri, Hökumət evi, III mərtəbə,
Mədəniyyət və Turizm Nazirliyi, Kitabxana sektoru (otaq 322)
"İlin kitabxanaçısı müsabiqəsi"